UOT: 341.9:42

# DƏNİZ MÜHİTİNİN MÜHAFİZƏSİ SAHƏSİNDƏ BEYNƏLXALQ ƏMƏKDAŞLIĞIN ƏSAS İSTİQAMƏTLƏRİ

**Şirəliyev Ə.T.**

*Azərbaycan Dövlət Dəniz Akademiyası*
*AZ1000, Bakı şəh., Z.Əliyeva küç., 18*
*E-mail: akber1958@mail.ru*

***Xülasə.*** *Məqalədə dəniz mühitinin mühafizəsi sahəsində dövlətlər arasında əməkdaşlığın əsas inkişaf istiqamətləri nəzərdən keçirilir.*

***Abstract.*** *The article discusses the main directions of development of cooperation between states in the field of marine environment protection.*

***Аннотация.*** *В статье рассматриваются основные направления развития сотрудничества государств в области охраны морской среды.*

***Açar sözlər:*** *ekologiya, gəmiçilik, çirklənmə, əməkdaşlıq, razılaşma*
***Key words:*** *ecology, shipping, pollution, cooperation, agreement*
***Ключевые слова:*** *экология, судоходство, загрязнение, сотрудничество, соглашение*

**Giriş.** Dünya okeanı planetar təbii mühitin keyfiyyətini qlobal miqyasda təmin edən biosferin mühüm komponentidir. Dəniz mühitinin çirklnmədən mühafizəsinin zəruruliyi, müasir dövrün ən aktual problemi kimi, məhz bununla müəyyən edilir. Çoxsaylı çirkləndirici mənbələr, böyük miqdarda zərərli və toksik maddələrin dənizə atılması Dünya okenının ayrı-ayrı ekosistemlərinin deqradasiyasına, ekoloji tarazlığın pozulmasına və dəniz mühitinin məhsuldarlığının aşağı düşməsinə gətirib çıxarmışdır. Dəniz mühitinin çirklənməsinin qarşısının alınması üzrə kompleks tədbirlərin görülməsi qlobal ekoloji böhranın qarşısının alınmasının mütləq şərtlərindəndir. Bütün Dünya okeanı ekosisteminin üzvi bütövlüyü və onun ayrı-ayrı elementləri arasındakı sıx qarşılıqlı əlaqələr dəniz mühitinin mühafizəsinə beynəlxalq yanaşma ilə səciyyələnir və beynəlxalq-hüquqi tənzimlənməni tələb edir [3,4]. Bu cür yanaşma BMT-nin dəniz hüququ üzrə 1982-ci ildə qəbul etdiyi Konvensiyanın müqəddiməsində nəzərdə tutulmuşdur. Bu sənədə əsasən dəniz məkanının problemlərinin həlli məsələlərinə onun tam bütövlüyü baxımından yanaşılmalıdır.

**Əsas hissə.** Qlobal ekoloji fəlakətlərin mümkünlüyü dəniz mühitinin çirklənməsinin qarşısının alınması istiqamətində yönəlmiş beynəlxalq-hüquqi tədbirlərin işlənib hazırlanması zərurətini doğurur. Aparılan müşahidələr göstərir ki, dəniz mühitinin çirklənməsinin qarşısının alınması istiqamətində qəbul edilmiş beynəlxalq-hüquqi aktların tətbiqi nəticəsində 1981-ci ildən üzü bu tərəfə Dünya okeanına atılan neft məhsullarının həcmi 60 %-dən çox azalmışdır, baxmayartaq ki, bu dövr ərzində tanker daşımalarının həcmi iki dəfəyə qədər artmışdır. Aparılan müşahidr göstərir ki, bütövlükdə beynəlxalq dəniz daşımalarının həcmi ildən-ilə daha yüksək templərlə artır. BMT-nin Ticarət və İnkişaf Komitəsinin (UNCTAD) gəmiçilik üzrə 2018-ci ilin nəticələrinə dair dərc etdiyi icmalda qeyd edilir ki, il ərzində dəniz nəqliyyatı ilə daşınılan yüklərin ümumi miqdarı 11 milyard tona yaxın olmuşdur [2]. Bu cür nəhəng yük dövriyyəsinin təmin edilməsi gəmiçiliyin intensivliyi hesabına başa gəlmişdir. Gəmilərin hərəkət intensivliyinin yüksəlməsi dəniz mühitinin çirklənmə risklərini artırır.

Dəniz mühitinin çirklənmədən mühafizəsinin beynəlxalq-hüquqi tənzimlənməsinin nəzəri aspektlərinin tədqiqi Dünya okeanının mühafizəsi üzrə səmərəli beynəlxalq-hüquqi mexanizmin yaradılması üçün mühüm zəmin yaradır, belə ki, yalnız fundamental tədqiqatlar əsasında işlənib hazırlanmış sənədlər bu sahədə yüksək nəticələr əldə etməyə imkan yarada bilər.

Dəniz mühitinin çirklənmədən mühafizəsinin hüquqi tənzimlənməsi ilə bağlı məsələlər bizim ölkəmiz üçün də aktual problemlərdəndir. Dünya birliyinin üzvü kimi, Azərbaycan Respublikası

dəniz mühitinin mühafizəsi və Dünya okeanının ekosisteminin qorunması istiqamətində hazırlanan beynəlxalq-hüquqi sənədlərin formalaşmasında fəal iştirak edir. Azərbaycanın avropa birliyinə inteqrasiya prosesi ölkədaxili ekoloji-hüquqi normaların beynəlxalq standartlara uyğunlaşdırılması zərurətini doğurur.

Xəzər dənizinin ekosisteminin müasir vəziyyəti məsələyə çox ciddi yanaşmanı tələb edir. Son dövrlərdə Xəzərin təbii ehtiyyatlarından istifadənini səviyyəsinin yüksəlməsi, gəmiçiliyin intensivliyinin artması kimi amillər dənizin ekoloji vəziyyətinə ciddi təsir göstərir. Bir zamanlar canlı orqanizmlərlə zəngin olan dənizin ehtiyyatları müxtəlif mənşəli çirkləndiricilərin təsiri nəticəsində xeyli dərəcədə azalmışdır [5]. Dənizi çirkləndirən maddələr əsasən biogen birləşmələr, ağır metallar, radionüklidlər və bir sıra üzvi tərkiblərdir (neft məhsulları, xlorlu üzvi birləşmələr və s.).

Dəniz mühiti özünəməxsus xüsusiyyətlərə malik hüquqi təsir obyekti olduğu üçün bu sahədə tənzimləmələr beynəlxalq dəniz hüququnun norma və prinsipləri, beynəlxalq ekoloji hüququn, beynəlxalq təşkilatların hüquqları, ölkələr arasında əməkdaşlığı tənzimləyən beynəlxalq sazişlərin normaları əsasında həyata keçirilir. Göstərilən sahədə hüquqi təsirlərin səmərəliliyi dəniz mühitinin çirklənmədən mühafizəsi sahəsindəki qarşılıqlı münasibətlərin, prinsip və normaların qarşılıqlı təsirlərinin səviyyəsindən və onlar arasındakı əlaqələrin sistemliliyinin xarakterindən asılıdır. Bu faktorlar gəmilər tərəfindən dəniz mühitinin çirklənmədən mühafizəsinin hüquqi tənzimlənməsi mexanizminin nəzərdən keçirilməsi zamanı məsələyə sistemli yanaşmanı tələb edir.

Qeyd etmək lazımdır ki, ötən əsrin yetmişinci illərinin əvvəlinə kimi dəniz mühitinin müdafiəsi və qorunması rejimi üzrə müəyyən dərəcədə səmərəli hər hansısa bir beynəlxalq-hüquqi sənəd mövcud olmamışdır. Dəniz hüququ üzrə 1958-ci ildə qəbul edilmiş dörd Cenevrə konvensiyaları bu məsələyə dair yalnız ayrı-ayrı müddəaları, özü də kifayət qədər məhdud çərçivədə özlərində əhatə etmişdir. Problemin kəskin xarakter alması dəniz mühitinin çirklənmədən mühafizəsi sahəsində kompleks xarakterli və daha səmərəli tədbirlərin hazırlanması və həyata keçirilməsi zərurətini doğurmuşdur.

Son illər dəniz mühitinin müdafiəsi və qorunmasının beynəlxalq-hüquqi rejimi istiqamətində aparılan tənzimləyici tədbirlər həm üfüqi (çirkləndirici mənbələr üzrə) həm də şaquli (universal və regional) istiqamətləri əhatə edir.

Hazırda dəniz mühitini çirkləndirən və hüquqi tənzimləməni tələb edən əsas mənbələri aşağıdakı kimi qruplaşdırmaq olar:

-quruda yerləşən çirkləndirici mənbələr (dəniz məkanının çirklənməsinə səbəb olan mənbələrin təxminən 85% onların payına düşür);

-gəmiçilik (gəmilərin istismarı və dəniz qəzaları zamanı dənizə atılan tullantılar);

-dəniz dibinin kəşfiyyatı və işlənilməsi (həm ərazi həm də beynəlxalq sularda);

-tullantıların basdırılması;

-atmosfer vasitəsilə çirklənmə.

Gəmiçilik nəticəsində dəniz mühitinin çirklənməsi kifayət qədər geniş yayılmış haldır və o Dünya okeanının ekosistemınə əhəmiyyətli dərəcədə təsir göstərir. Məlum olduğu kimi, dəniz nəqliyyatı dünya iqtisadiyatının inkişafında çox mühüm rol oynayır. Dünya iqtisadiyatının inkişaf templəri dəniz nəqliyyatının adekvat qaydada inkişaf etməsinə təkan verir. Nəticədə dəniz nəqliyyatı tərəfindən dəniz mühitinin çirklənmə səviyyəsi də müvafiq qaydada artır. ABŞ-ın okeanoqrafiya və atmosfer üzrə milli administrasiyasının məlumatlarına əsasən dünya ticarətinin bu günkü həcmi 1995-ci il ilə müqayisədə təxminən üç dəfəyə qədər artmışdır və yüklərin 90%-ə yaxını dəniz nəqliyyatı vasitəsilə daşınılır. Bu baxımdan dəniz mühitinin gəmilər tərəfindən çirkləndirilməsinin qarşısının alınması istiqamətində çox ciddi addımlar atılması tələb olunur [1].

Beynəlxalq-hüquqi praktikada dəniz mühitinin gəmilər tərəfindən çirkləndirilməsinin qarşısının alınmasını tənzimləyən çoxsaylı normativ aktlar mövcuddur. Dəniz mühitinin mühafizəsi sahəsində ölkələrin birgə fəaliyyətlərinin hüquqi əsasında əldə edilmiş beynəlxalq sazişlər dayanır. Bu cür sazişlər çoxtərəfli universal və regional xarakterli ola bilər. Universal sazişlər əsas etibarı ilə məsələnin hüquqi baxımdan tənzimlənməsi istiqamətlərini əhatə edir. Bunlara aiddir:

-dənizin neftlə çirklənməsinin qarşısının alınması üzrə Beynəlxalq Konvensiya, 1954-cü il (Konvensiya OİLPOL 54);

-dənizin atılan tullantılarla və müxtəlif materiallarla çirklənməsinin qarşısının alınması üzrə Beynəlxalq Konvensiya, 1972-ci il;

-gəmilərdən dənizin çirklənməsinin qarşısının alınması üzrə Beynəlxalq Konvensiya (MARPOL73/78 );

-neftlə çirklənməyə görə vətəndaş məsuliyyəti haqqında Beynəlxalq konvensiya, 1969-cu il.

Birləşmiş Millətlər Təşkilatının 1982-ci ildə dəniz hüququ üzrə qəbul etdiyi Konvensiya universa beynəlxalq-hüquqi aktlar içərisində xüsusi yer tutur. Dünya okeanının tədqiqi və ondan istifadə üzrə bütün ölkələrin fəaliyyətlərinin qlobal miqyasda tənzimlənməsinə dair məsələlər bu sənəddə öz əksini tapmışdır.

Dəniz mühitinin çirklənmədən mühafizəsinin beynəlxalq-hüquqi tənzimləməsində universal səviyyəli sənədlərlə yanaşı regional hüquqi sənədlər də mühüm rol oynayır. Ötən əsrin 70-ci ilərindən başlayaraq dəniz mühitinin çirklənmədən mühafizəsi sahəisndə dövlətlər arasında əməkdaşlığın səviyyəsi əhəmiyyətli dərəcədə yüksəlməyə başladı. Regional yanaşma daha yüksək dinamizmə malikdir. Belə hal, regionda mövcud olan siyasi və iqtisadi amillərdən, eləcə də sahilyanı dövlətlərin regionun aktual ekoloji problemlərinin həlində iştirakının aktivlik səviyyəsindən asılıdır. BMT-nin 1982-ci ildə dəniz hüququ üzrə qəbul etdiyi Konvensiyanın 123-cü maddəsində göstərilir ki, özlərinin hüquq və mükəlləfiyyətlərinin həyata keçirilməsində region dövlətləri biri-biri ilə əməkdaşlıq etməlidirlər. Regional əməkdaşlıq Dünya okenının ayrı-ayrı su hövzələrinin özünə məxsus xüsusiyyətlərini nəzərə almağa və onların çirklənmədən mühafizəsi üzrə prinsip və məsələləri müəyyənləşdirməyə imkan verir. Dəniz resurslarının qorunması sahəsində regional əməkdaşlığın səmərəliliyi sahilyanı dövlətlərin qarşılıqlı maraqlarının təminat səviyyəsindən asılıdır [3].

Dəniz mühitinin çirklənmədən mühafizəsi sahəsində regional əməkdaşlığın inkişaf etdirilməsi Azərbaycan üçün də böyük əhəmiyyət kəsb edir [5]. Bu əməkdaşlığın əsasında Xəzər dənizinin mühafizəsi üzrə Çərçivə Konvensiyası durur. Konvensiya 2003-cü ildə beş Xəzəryanı dövlət tərəfindən Tehranda imzalanmışdır. Bu Çərçivə Konvensiyası Xəzər dənizinin hüquqi statusu üzrə Konvensiyanın ilk beştərəfli beynəlxalq sənədi, beləliklə də, digər çoxtərəfli müqavilələrin, o cümlədən Xəzərin bioloji resurslarının qorunub saxlanması, hidrometeorologiya və dənizin çirklənməsinin monitorinqi sahəsində əməkdaşlıq haqqında müqavilələrin, Xəzər dənizinin yerüstü mənbələrdən çirklənməsindən mühafizəsi üzrə Protokolun və başqa sənədlərin qəbulu üçün baza olmuşdur. “Tehran Konvensiyası” kimi də tanınan bu Konvensiya 12 avqust 2006-cı il tarixdən qüvvəyə minmişdir. Konvensiya Xəzər dənizi mühitinin bütün növ mənbələrdən çirklənməsinin qarşısının alınmasına, həmçinin Xəzər dənizinin dəniz ətraf mühitinin mühafizəsi, qorunub saxlanması və bərpasına xidmət edir. Konvensiyada Xəzər dənizinin bioloji sərvətlərinin davamlı və səmərəli istifadəsinə, ətraf mühitə təsirin qiymətləndirilməsinə, ekoloji monitorinqə və elmi tədqiqatlara aid müddəalar öz əksini tapmışdır.

Dənizyanı ölkələrin dəniz təsərrüfat komplekslərinin fəaliyyətlərinin və gəmiçiliyin intensivliyinin yüksələn dinamika ilə inkişaf etdiyi müasir dövrdə gəmilərin istismarı və onlara xidmət nəticəsində dəniz mühitinin çirklənmədən mühafizəsi məsələlərinin hüquqi tənzimlənməsi xüsusi əhəmiyyət kəsb edir.

Dəniz mühitinin əhəmiyyətli dərəcədə çirklənməsi və bunun nəticəsində ekoloji tarazlığın pozulması təhlükəsi Dünya okeanının bir çox hissələrində müşahidə olunur. Belə vəziyyət dəniz mühitinin mühafizəsi sahəsində çox ciddi və təxirəsalınmaz tədbirlərin həyata keçirilməsi zərurətini doğurur [4]. Bu tədbirlər istənilən mənbələrdən dənizin çirklənməsinin qarşısının alınmasına yönəlməli, kompleks xarakter daşımalı və səmərəli olmalıdır. Dəniz ekosistemlərinin bütöv xarakter daşıması, çirkləndirici mənbələrin və çirkləndiricilərin növlərinin çoxluğu, onların müxtəlif ölkələrin ərazilərində yerləşməsi səbəblərindən Dünya okeanının mühafizəsi problemi ayrı-ayrı

dövlətlərin fəaliyyətləri hesabına həll edilə bilməz. Buna görə də bu sahədə görülən tədbirlərin səmərəliliyi, ilk növbədə universal və regional səviyyələrdə beynəlxalq əməkdaşlıqdan asılıdır.

Müasir dövrdə dövlətlər arasında əməkdaşlıq bütövlükdə, həm ətraf mühitin mühafizəsi həm də dəniz mühitinin çirklənmədən mühafizəsi sahəsində geniş inkişaf edir. Bu sahədə beynəlxalq əməkdaşlığın təməli 1913-cü ildə 18 ölkənin alimlərinin iştirakı ilə təbiətin mühafizəsi üzrə Berndə (İsveçrə) keçirilən beynəlxalq konfransda qoyulmuşdur. Lakin, yalnız 1948-ci ildə YUNESCO-nun (United Nations Educational, Scientific and Cultural Organization) təşəbbüsü ilə təbiətin müdafiəsi üzrə Beynəlxalq ittifaqın (1956-cı ildən etibarən təbiətin və təbii ehtiyyatların mühafizəsi üzrə Beynəlxalq ittifaq) təsis edilməsindən sonra bu sahədə əməkdaşlıq konkret forma və məna kəsb etməyə başladı. Avropada təhlükəsizlik və əməkdaşlıq üzrə 1975-ci il Müşavirəsinin Yekun aktında dövlətlərarası əməkdaşlıq prosesində ekoloji tarazlığın saxlanmsı probleminə əhəmiyyətli diqqət yetirilmişdir. Aktda qeyd edilir ki, ətraf mühitin bir çox problemləri sıx beynəlxalq qarşılıqlı əməkdaşlıq yolu ilə səmərəli şəkildə həll edilə bilər [3,4].

Dövlətlərin ekoloji strategiyalarının işlənib hazırlanması istiqamətində beynəlxalq aləmdə bir sıra konstruktiv təbirlər görülmüşdür. Bunların içərisində BMT-nin ətraf mühit və və inkişaf üzrə 1992-ci il Konfransını və ətraf mühitin mühafizəsi üzrə ölkələrin məsul şəxslərinin Ümumavropa müşavirəsini xüsusi olaraq qeyd etmək olar. Hazırki vaxta qədər 215-dən çox beynəlxalq ekoloji saziş qüvvəyə minmişdir. Ekoloji təhlükəsizliyin tənzimlənməsi sahəsində əsas məsələ dövlətlərin qarşılıqlı əməkdaşlıqlarının tənzimlənməsi və bu əməkdaşlığın koordinasiyasıdır. Bu cür əməkdaşlıq müştərək vahid texniki standart və qaydaların qəbul edilməsi ilə də nəticələnə bilər.

BMT-nin 1982-ci ildə qəbul etdiyi dəniz hüququ üzrə Konvensiyada dövlətlərin dənizlə bağlı problemlərin həllində əməkdaşlıq prinsiplərinə riayət etmələrinin zəruriliyi xüsusi olaraq qeyd edilmişdir. Bu prinsiplərə əsasən dövlətlər həm dəniz məkanının hüquqi rejiminin işlənib hazırlanması, həm də ehtiyatlardan istifadə ilə bağlı məsələlərdə qarşılıqlı əməkdaşlıq etməlidirlər. 1982-ci il Konvensiyasının müqəddiməsində qeyd edilir ki, iştirakçı dövlətlər dəniz hüququna aid bütün məsələlərin tənzimlənməsində qarşılıqlı anlaşma və əməkdaşlıq prinsiplərini rəhbər tutmalıdırlar.

Dəniz mühitinin müdafiəsi və qorunub saxlanması sahəsində beynəlxalq əməkdaşlıq bir neçə istiqaməti əhatə edir. Bu sahədə fəaliyyətin əsas istiqamətləri aşağıdakılardır:

- norma, standart, qayda və tövsiyə olunan prosedurların işlənib hazırlanması və tətbiq edilməsi;
- çirklənmənin qarşısının alınması, azaldılması və fəsadların aradan qaldırılmasında dövlətlərin müştərək fəaliyyətləri;
- ekoloji nəzarət və dəniz mühitinin vəziyyətinin qiymətləndirilməsi sisteminə monitorinqin həyata keçirilməsi;
- beynəlxalq elmi tədqiqatların proqramlarının yerinə yetirilməsi;
- texniki köməklik göstərilməsi.

Ətraf mühitin, o cümlədən dəniz mühitinin mühafizəsi sahəsində dövlətlər arasında mövcud olan çoxsaylı əməkdaşlığın istiqamətlərindən biri də ekoloji sahədə maarifləndirmə, təhsil və təbiətin mühafizəsinə yönəlmiş tərbiyəvi tədbirlərin işlənib hazırlanması və həta keçirilməsidir. Əməkdaşlığın bu istiqaməti digərləri ilə müqayisədə heç də az əhəmiyyət kəsb etmir, belə ki, gəmiçilik sahəsində dəniz mühitinin çirklənmədən mühafizəsinin qarşısinin alınmasında və qabaqlayıcı tədbirlərin görülməsində insan amili önəmli rol oynayır [4].

Dəniz mühitinin çirklənmədən mühafizəsi sahəsində beynəlxalq əməkdaşlığın əsas məqsədi bu sahədə müşahidələrin aparılması üzrə tövsiyyə və standartların, çirklənmə səviyyəsinin qiymətləndirilməsi və təhlili, eləcə də çirklənmənin fəsadlarının aradan qaldırılması və qarşısının alınması istiqamətində normativ, inzibati və texniki qaydalar sisteminin yaradılmasından ibarətdir. Beynəlxalq əməkdaşlıq vasitəsilə həyata keçirilən müştərək fəaliyyət səlahiyyətli beynəlxalq təşkilatlar tərəfindən qəbul edilən tədbirlərə əsaslanır.

Bu sahədə dövlətlər arasında əməkdaşlığın aşağıdakı səviyyələrini göstərmək olar:

1. BMT sistemi çərçivəsində həyata keçirilən əməkdaşlıq. Ətraf mühitin mühafizəsi sahəsində əsas koordinasiya mərkəzi rolunda BMT-nin Baş Assambleyasının köməkçi orqanı çıxış edir. Fəaliyyət BMT-nin ətraf mühit üzrə Proqramı (UNEP) əsasında ixtisaslaşmış qurumlar-Beynəlxalq Dəniz Təşkilatı (İMO), Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı (FAO) və Atom enerjisi üzrə Beynəlxalq Agentlik (IAEA) vasitəsilə həyata keçirilir.

2. Regional səviyyədə əməkdaşlıq (BMT-nin regional komissiyaları çərçivəsində, məsələn, Asiya və Sakit okean üzrə iqtisadi və sosial komissiya).

3. Hökümətlərarası regional yaxud subregional xarakterli proqramlar çərçivəsində aparılan əməkdaşlıq.

4. Beynəlxalq qeyri-hökümət təşkilatları çərçivəsində, eləcə də milli elmi mərkəzlər arasında həyata keçirilən əməkdaşlıq.

5. Beynəlxalq təşkilatlar çərçivəsi xaricində çoxtərəfli əsaslarla birbaşa dövlətlər arasında həyata keçirilən əməkdaşlıq.

6. İkitərəfli münasibətlər əsasında həyata keçirilən əməkdaşlıq.

Göründüyü kimi, beynəlxalq əməkdaşlıqda əsas rol BMT-yə məxsusdur. BMT bu funksiyaları özünün ixtisaslaşmış orqanları olan təbii ehtiyatlar üzrə Komitə və ətraf mühit və inkişaf üzrə Ümumdünya komissiyası vasitəsilə həyata keçirir. Konkret sahələrdə ətraf mühitin mühafizəsi sahəsində ekoloji siyasəti BMT özünün ixtisaslaşmış təşkilatları (İMO, FAO, İCAO, IAEA) vasitəsilə tənzimləyir. Gəmilərdən dənizin çirkləndirilməsinin qarşısının alınması sahəsində əməkdaşlıq üzrə məsələlərdə əsas səlahiyyət Beynəlxalq Dəniz Təşkilatına (BDT) həvalə olunmuşdur. Dəniz mühitinin mühafizəsi üzrə əməkdaşlıq sahəsində BDT-nin həyata keçirdiyi fəliyyət növləri içərisində aşağıdakıları qeyd etmək olar:

-dəniz mühitinin çirklənməsinin qarşısının alınması və gəmiçiliyin müxtəlif sahələrində elmi tədqiqatların aparılması;

- dəniz mühitinin mühafizəsi sahəsində beynəlxalq konvensiyaların layihələrinin hazırlanması;

- qayda, reqlament və tövsiyələrin işlənib hazırlanması;

- ayrı-ayrı dövlətlərə texniki yardım göstərilməsi.

Yuxarıda şərh edilən fikirləri ümumiləşdirərək belə nəticəyə gəlmək olar ki, dəniz mühitinin mühafizəsi üzrə beynəlxalq əməkdaşlığın müxtəlif hüquqi və təşkilati formaları içərisində üç əsas istiqaməti ayırmaq daha məqsədəuyğundur:

1. Dövlətlər arasında sazişlərin işlənib hazırlanması və bağlanması.

2. Əməkdaşlıq etməkdə maraqlı olan beynəlxalq təşkilatlar arasında razılaşmaların əldə edilməsi.

3. Xüsusi beynəlxalq proqramların işlənib hazırlanması.

Göründüyü kimi, dəniz mühitinin mühafizəsi problemi universal, regional və lokal xarakterli beynəlxalq-hüquqi normaların tələblərinə ciddi şəkildə riayət edilməklə həll edilə bilər.

**Nəticə.** Beynəlxalq əməkdaşlıq dəniz mühitinin mühafizəsi və ondan istifadənin optimallaşdırılmasının çox mühüm amillərindən biridir. Buna görə də yalnız dövlətlərin birgə kompleks tədbirləri dəniz mühitinin çirklənməsinin qarşısını ala və yaxud onu məhdudlaşdıra bilər. Bu cür əməkdaşlığın obyektiv zəruriliyi bir sıra amillərlə müəyyən edilir. Birincisi, Dünya okenının ayrı-ayrı akvatoriyaları vahid və bölünməz makrosistem təşkil edir və dəniz mühitinin vəziyyətinin dəyişməsinin məhdud məkan çərçivəsində baş verməsi mümkün deyildir. İkincisi, ən yüksək iqtisadi və elmi-texniki potensiala malik olan istənilən dövlət dəniz mühitinin qorunub saxlanması və onun vəziyyətinin yaxşılaşdırılması ilə bağlı bütün problemləri təkbaşına həll edə bilməz. Üçüncüsü, Dünya okeanından istifadə beynəlxalq xarakter daşıdığı üçün dəniz mühitinin mühafizəsi ilə bağlı problemlərin həlli də beynəlxalq əməkdaşığın mövcudluğunu tələb edir.

## Ədəbiyyat

1. Международная Конвенция по предотвращению загрязнения с судов (МК МАРПОЛ-73/78), Книги I, II и III –СПб.: АО "ЦНИИМФ", -2017.
2. UNCTAD (2018) // Review of Maritime Transport (United Nations publication. Sales No. E.18.II.D.10). -New York and Geneva, -2018.
3. Короткий, Т.Р. Международно-правовая охрана морской среды от загрязнения с судов/ Т.Р. Короткий, -Одесса: Латстар, -2002 с.
4. Солнцев, А.М. Международное морское право / А.М. Солнцев, С.М. Копылов -М.: РУДН. -2010.
5. Магеррамов, А.А. Международно-правовые проблемы сотрудничества государств по управлению биоресурсами и охране окружающей среды Каспийского моря/ А.А. Магеррамов. -Баку, -2003.

*Məqalə qəbul olunub: 11.03.2020*
*Tövsiyə edib: t.e.d., prof. Z.Ə.Rüstəmov*

**УДК 621.**

# СУДА ОБЕСПЕЧЕНИЯ С ФУНКЦИЕЙ ПОДРЫВА И РАЗВОЗКИ ЯКОРЕЙ

**Салманов И. С.**

*Каспийский морской транспортный проектно-изыскательный и научно-исследовательский институт*
*AZ1065, г. Баку, ул. Казим Казимзаде, 117*
*E-mail: ibrahim.salmanov@asco.az*

***Аннотация.*** *В статье исследуется один из видов специализированного судна для обработки якорей. Даётся информация о судах обеспечения с функцией подрыва и развозки якорей. Помимо этого, анализируются главные функции этих судов, а также перспективы их использования.*

***Xülasə.*** *Məqalədə təchizat gəmi növlərindən biri araşdırılır. Lövbərləri aşkarlama və daşıma funksiyası olan dəstək gəmilərindən məlumatlar verilir. Bundan əlavə, bu gəmilərin əsas funksiyaları, eləcə də istifadəsi perspektivləri təhlil edilir.*

***Abstract.*** *The article explores one of the types of specialized vessel for handling anchors. Information is provided on support vessels with the function of detonating and transporting anchors. In addition, the main functions of these vessels, as well as the prospects for their use, are analyzed.*

***Ключевые слова:*** *нефтедобывающая промышленность, суда обеспечения, функция подрыва якоря, функция развозки якоря*

***Açar sözlər:*** *neft sənayesi, təchizat gəmiləri, lövbər sökülməsi funksiyası, lövbər daşınması funksiyası*

***Key words:*** *oil industry, support vessels, anchor demolition function, anchor transport function*

**Введение.** В нефтедобывающей промышленности задействовано множество различных специализированных судов и одними из них являются суда обеспечения, буксиры для обработки якорей.

Судно (буксир) для обработки якорей типа AHT (Anchor-Handling Tug) предназначено для завозки, подрыва и перекладки рабочих якорей, также используется для буксировки буровых судов, платформ, лихтеров и других судов технического флота.